*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 avqust 2017-ci il № 64 (2181) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Tarixi ədalət bizim tərəfimizdədir



*Ötən ayın tarixə qovuşan hadisələrindən biri də Azərbaycan mətbuatının nümayəndələrindən bir qisminə dövlət başçısı tərəfindən mənzillərin verilməsi oldu. Ölkə ictimaiyyəti tərəfindən böyük coşqu ilə qarşılanan bu hadisə jurnalistika sahəsində çalışan insanlarda, onların ailələrində dövlətimizin gücünə inam hissini daha da artırdı. Hamı bir daha yəqin etdi ki, hər bir ölkə vətəndaşının qarantı olan Azərbaycan Prezidenti İlham Əliyev azad mətbuatın inkişafı naminə də öz fədakarlığını əsirgəmir.*

Bütün dövlət tədbirlərində, rəsmi görüşlərdə olduğu kimi bu dəfə də dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bu məsələ ətrafında əsl həqiqətlərin dünya ictimaiyyətinə təbliğ edilməsi üçün müasir mediamızın qarşısında böyük məsuliyyətin dayandığını vurğuladı. "Dövlət və media milli maraqları birgə müdafiə etməlidir. Çünki ümummilli məsələlərdə fikir ayrılığı ola bilməz. Ona görə də biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdıraq, ölkəmizi daha yaxından tanısınlar, daha çox hörmət etsinlər. Bizi nə qədər çox tanıyarlarsa, bizə rəğbət də o qədər çox artar".

Həmin tədbirdə dövlət başçısının da qeyd etdiyi kimi, əvvəlki dövrlərdə ölkəmiz haqqında həqiqətlər beynəlxalq arenada yetərincə təbliğ olunmurdu, əgər əvvəlki illərdə Dağlıq Qarabağ münaqişəsi haqqında rəsmi görüşlərdə, diplomatik tədbirlərdə söhbət gedirdisə, demək olar dünya ictimaiyyəti bu münaqişədən xəbərsiz idi. Əsl həqiqətlərin əvəzində dünya mətbuatı erməniləri yazıq, zavallı və haqları pozulan millət qismində tanıtmağa çalışırdı. Şübhə yoxdur ki, bu sahədə erməni lobbisi müstəsna rol oynayırdı, super dövlətlərin ermənipərəst qüvvələri öz nəzarətlərində olan media resurslarında Qarabağ həqiqətlərini təhrif olunmuş formada təbliğ edirdilər.

Amma müasir dövrdə vəziyyət tamamilə bizim xeyrimizədir. Bu gün dövlətimizin inamlı xarici siyasəti, diplomatik qətiyyəti sayəsində beynəlxalq müstəvidə çox şey dəyişib. Artıq dünya ictimaiyyəti Azərbaycan haqqında kifayət qədər məlumatlıdır və ölkəmizin ərazi bütövlüyünün hərbi təcavüzə məruz qaldığını yaxşı bilir. Yeri gəlmişkən bu sahədə dövlət rəhbərliyi ilə yanaşı Heydər Əliyev Fondu kimi mühüm ictimai təşkilatların, habelə diaspor qurumlarının fəaliyyətini də qeyd etmək lazımdır. Artıq beynəlxalq səviyyəli ekspertlərin də qənaəti belədir ki, Ermənistan nəyə nail olubsa, 20 il bundan əvvəl nail olub. Onların gücü bizə nisbətən daim zəifləyir, həm siyasi-iqtisadi, həm də hərbi baxımdan. Təkcə bir faktı qeyd etmək lazımdır ki, 2016-cı ilin aprel döyüşləri Ermənistan ordusunun məğlubedilməzliyi haqqında mifi darmadağın etdi. Çox qısa müddət ərzində ordumuz tarixi qələbə qazandı, ən başlıcası isə işğalçıları torpaqlarımızdan qovub çıxarmaq və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iradəsini bütün dünyaya nümayiş etdirə bildi. Hər kəsə bir həqiqət məlum oldu ki, Azərbaycan xalqı və dövləti torpaqlarımızın işğalı ilə heç zaman barışmayacaqdır.

**(Ardı 2-ci səhifədə)**

## "Qarabağ"ın qələbəsi dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir"

*"Qarabağ"ın qələbəsi tarixi qələbədir. Bu qələbənin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" futbol klubunun heyətini qəbul edərkən deyib.

"Biz döyüş meydanlarında da, idman meydançalarında da qələbələr qazanırıq. Necə ki, keçən ilin aprel ayında qəhrəman Azərbaycan hərbçiləri şücaət göstərərək torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdilər", - deyən Prezident İlham Əliyev o torpaqlarda indi həyat qaynadığını, vətəndaşların işğaldan azad edilmiş torpaqlara qayıtdıqlarını, indi orada yaşadıqlarını, qurub-yaratdıqlarını, həmin torpaqlarda indi Azərbaycan bayrağının dalğalandığını vurğulayıb.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı "Qarabağ"ın qələbəsinə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə "Qarabağ" adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub.

## "Azərbaycan çox gözəl, nadir və tolerant ölkədir"

Mənim Azərbaycana xüsusi sevgim var. Azərbaycan çox gözəl, nadir və tolerant ölkədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Qlobal Gənc Liderlər Forumunda iştirak edən Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov deyib.

Sabiq Prezident bildirib ki, Azərbaycanda müxtəlif dinlərə mənsub insanlar sülh şəraitində birgə yaşayırlar. Bu Forum kimi mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycan əla məkandır. Hər dəfə Bakıya gələndə paytaxtınızın necə dəyişdiyinin şahidi oluram.

Qlobal Gənc Liderlər Forumunun əhəmiyyətinə toxunan Petar Stoyanov vurğulayıb ki, gənc liderlər bizim gələcəyimizdir və buna görə də Forum çərçivəsində biz onlarla öz təcrübəmizi, ideyalarımızı, mövqelərimizi bölüşürük. Müzakirə olunan mövzuların aktuallığı, irəli sürülən yeni ideyalar, təkliflər, gənclərin fəallığı Forumun uğurlu nəticələr verəcəyini deməyə əsas verir.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Tarixi ədalət bizim tərəfimizdədir

(Əvvəli 1-ci səhifədə)



Bu gün reallıq onu göstərir ki, ermənilərin iqtisadi, demoqrafik, hərbi qüvvələri tükənib. Bu faktı erməni ziyalıları, onların nüfuzlu ekspertləri də qeyd edirlər və həyəcanla bildirirlər ki, Ermənistanın hazırkı siyasi-hərbi rəhbərliyi bu ölkəni tam iflasa uğradıb, artıq işğalçı dövlət uçurumun astanasındadır. Əksinə, Azərbaycan tərəfi, həm dövlətimiz, həm də ictimaiyyətimiz sonadək iradəsini ortaya qoyur ki, bizim torpaqlarımız son qarışınadək işğaldan azad ediləcəkdir. Bu məqsədlə ordumuz da güclənir, gəncliyimizin, böyüməkdə olan nəslin döyüş ruhu da günbəgün artır.

Bu yaxınlarda Abşeron rayonunun Müşviqabad qəsəbəsində bir qohumgilə getmişdik. 8-9 yaşlarında bir oğlanın hazırcavablığı məni heyran etdi. Ona vətənpərvərlik, bayrağımız, dövlətimiz haqqında suallar verəndə hamısını yetərincə cavablandıra bildi. "Şəhidlik nədir?" sualına isə onun səlis cavabı məni yerimdən oynatdı. - Şəhidlik Vətən uğrunda can fəda etməkdi, - deyən balaca məktəbli aprel döyüşlərinin qəhrəmanlarını, Murad Mirzəyevi, Samid İmanovu, Raquf Orucovu, Elnur Əliyevi misal çəkdi. Hətta onu da qeyd etdi ki, komandirlərdən biri öz əsgərini xilas etmək naminə canını əsirgəməyib. Azərbaycan cəmiyyətinin reallığı belədir. Əgər azyaşlı bir vətəndaşımız qəhrəmanlığın, şəhidliyin nə demək olduğunu dərk edirsə, deməli ölkəmizdə mübariz nəsil formalaşıb. Azərbaycanda hamı deyir ki, torpaq uğrunda vuruşacam və bu yolda şəhid də olmağa hazıram. Bu gün Qarabağ mövzusu ətrafında Azərbaycan vətəndaşlarının milli ideyası tam formalaşıb. Məhz belə bir ideyanın, milli mənlik şüurunun gənc nəslə aşılanmasında Azərbaycan mətbuatının üzərinə böyük məsuliyyət düşür və sevindirici haldır ki, 20 il bundan əvvəlki dövrlə müqayisədə mediamız milli maraqlarımız naminə eyni bir müstəvidən çıxış edir, necə deyərlər, yumruğu bir nöqtəyə vurur.

Azərbaycanın ordu quruculuğunda qazanılan uğurlar, keçirilən irimiqyaslı təlimlər xalqımızın orduya olan güvəncini daha da artırıb. Dövlətin diqqət və qayğısından ruhlanan hərbi qulluqçular döyüş tapşırıqlarını şəxsi məsuliyyət hissi ilə yerinə yetirirlər. Amma bizimlə müqayisədə Ermənistanda vəziyyət çox acınacaqlıdır. Demoqrafik tənəzzülə uğrayan ölkədə erməni gəncləri ordudan yayınmağa çalışır, ev-eşiklərini atıb gedirlər. Ermənistanda əsgər anaları birbirinin ardınca mitinqlər keçirir, gənclərin cəbhədə günahsız yerə öldürülməsinə etiraz edirlər. Heç kim övladını orduya göndərmək istəmir. Məhz buna görə də işğalçı dövlətin ordusunda insan resursları qıtlaşıb. Hətta bu yaxınlarda internet saytlarında yayılan xəbərə görə, Ermənistanın cinayətkar hərbi-siyasi rəhbərliyi zabitləri orduda saxlamaq üçün bütün qeyri-qanuni üsullara əl atır.

Artıq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi bərpa edilib. Bu, Qarabağa, ümumiyyətlə əzəli yurd yerlərimizə Böyük Qayıdışın başlanğıcıdır. Vətəndaşlarımız işğaldan azad edilmiş el-obalarına qayıtmaq inamıyla yaşayırlar. Ətrafımızda hər kəs bunu böyük məmnuniyyətlə qarşılayır. Hamı böyük inamla o günü gözləyir və inanır ki, dövlətimiz insanları doğma torpaqlarına qaytaracaqdır. Bildiyimiz kimi, aprel zəfərinə kimi bu kənddə yaşayış mümkün deyildi, çünki yaxınlıqdakı yüksəklikdə yerləşən erməni silahlı bölmələri daim ərazini atəşə məruz qoyurdu. Amma ötən ilin aprel döyüşlərində Azərbaycan Ordusunun cəbhə xəttində yerləşən qüvvələri tərəfindən aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində bu strateji mövqelər də düşmən tapdağından azad edildi. Hazırda həmin ərazi ordumuzun tam nəzarətindədir və hərbi qulluqçularımız döyüş növbətçiliyində ayıq-sayıq dayanıblar. Elə bu böyük uğurlarımızın nəticəsi olaraq müasir dövrdə Azərbaycanda xalq-ordu birliyi güclüdür və bu möhkəm həmrəylik böyük qələbəmizə təminatdır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev milli mətbuat günü ərəfəsində jurnalistlərlə görüşündə əminliklə qeyd etdi ki, bu gün Azərbaycan xalqı qələbəmizə tam inanır, çünki tarixi ədalət bizim tərəfimizdədir. Artıq müxtəlif xalqların ictimai fikrində belə bir dönüş yaranıb ki, Dağlıq Qarabağ bölgəsi Azərbaycanın ayrılmaz tərkib hissəsi və beynəlxalq hüquqla təsbit olunan ərazi vahididir. Məhz buna görə də ölkəmizin haqlı mövqeyi üstünlük təşkil edir və dövlətlər tərəfindən dəstəklənir. Tarixi araşdırmalar da ermənilərin qədim dövlətçiliyə malik olmadıqlarını və bölgəyə gəlmə millət olduqlarını sübuta yetirib. Bu fikir dövlət başçısının çıxışlarında da dəfələrlə vurğulanıb ki, ermənilərin məskunlaşdığı torpaqlar Azərbaycanın tarixi əraziləridir. Göründüyü kimi, erməni millətçilərinin iddiaları tamamilə uydurma və əsassızdır. Xalqımızın doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizəsi haqq işidir və biz mütləq qalib gələcəyik. Məhz 2016-cı ilin aprelində olduğu kimi...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*25 avqust 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 156 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Berdavan, Barekamavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Vazaşen, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Məzəm, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun aviasiya hərbi hissəsinin SU-25 hücum təyyarələri təlim uçuşları həyata keçirib



*Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun aviasiya hərbi hissəsinin SU-25 hücum təyyarələri təlim uçuşları həyata keçirib. SU-25 hücum təyyarələrinə texniki baxış keçirildikdən sonra uçuşlara icazə verilib.*

Uçuş zolağına doğru hərəkət edən təyyarələr Naxçıvan səmasında uğurlu uçuşlar həyata keçiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, modernizə edilmiş SU-25 hücum təyyarəsi döyüş meydanında, istənilən hava şəraitində, gecə-gündüz quru qoşunlarının bilavasitə dəstəklənməsi və müxtəlif obyektlərin məhv edilməsi üçün təyin edilib.

SU-25 hücum təyyarəsi döyüşdə sağqalma və yüksəkmüdafiəli sistemlərə malikdir. Əsas diqqət pilot kabinəsinin və yanacaq sisteminin təhlükəsizliyinə yönəldilib.

Modernizə edilmiş SU-25 hücum təyyarəsinin güclü döyüş kompleksinə müxtəlif toplar, aviabombalar, "Hava-yer" idarəolunmayan, "Hava-hava" idarəolunan raketlər daxildir. Ümumilikdə təyyarəyə 32 növ silah quraşdırıla bilər.

Təlim uçuşlarının müvəffəqiyyətlə aparılması bir daha onu göstərdi ki, Əlahiddə Ümumqoşun Ordunun digər birləşmə, hissə və bölmələri kimi aviasiya eskadrilyası da



istənilən döyüş tapşırığını uğurla və qətiyyətlə yerinə yetirməyə hazırdır.

Uçuşları uğurla başa vuran heyətlərə Komandanlıq tərəfindən təşəkkür elan edilib.

AZƏRBAYCAN ORDUSU




# Füzuli və Cəbrayıl rayonlarının işğalı günü bölgələrdəki hərbi hissələrdə fərqli şəkildə qeyd edilib

*23 avqust - Füzuli və Cəbrayıl rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı günü bu il Silahlı Qüvvələrimizin bölgədəki hərbi hissələrində fərqli şəkildə - işğal edilmiş əzəli və əbədi torpaqlarımıza tezliklə qayıdacağımıza inam günü kimi qeyd edilib.*

"Biz yurd yerlərimizə qayıdacağıq!" devizi altında keçirilən tədbirlərdə Füzuli və Cəbrayıl rayonlarının tarixi, milli adət-ənənələri, füsunkar təbiəti, eləcə də görkəmli şəxsiyyətləri, qəhrəmanları haqqında ətraflı məlumat verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprel döyüşləri zamanı yüzlərlə hektar torpağın işğaldan azad edildiyi, nəzarətə götürüldüyü və bunun nəticəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamına əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması və böyük qayıdışın ilk köçünün yurd yerlərinə dönməsi böyük fərəh hissi ilə qeyd edilib.

Çıxış edənlər ordu ilə xalqın birliyindən danışıb, Ordumuzun Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün istənilən əmri yerinə yetirməyə hazır və qadir olduğunu bildiriblər.



Vətənpərvərlik hissinin daha da yüksəldilməsinə, yurd yerlərinə qayıdacağımız günə inam və ümidlərin daha da artmasına həsr edilən vətənpərvərlik mahnıları, hərbi marşlar, şeirlər döyüşçülər tərəfindən rəğbətlə və alqışlarla qarşılanıb.

Təlim

# İstehkamçılar döyüş vərdişlərini artırırlar

*Ordu müqəddəs və şərəfli bir vəzifəni həyata keçirir. Hər bir müstəqil dövlət mövcudluğunu, təhlükəsizliyini məhz Silahlı Qüvvələr vasitəsilə təmin edir. Elə bir dönəmdə yaşayırıq ki, ordumuz xalqın və dövlətin yükünü çiyinlərində daşımaq məsuliyyətini üzərinə götürüb. Bu gün əminliklə deyə bilirik ki, üzərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gələn ordumuz var. "N" hərbi hissəsinin mühəndis istehkamçılarının həyata keçirdiyi təlim taktiki məşğələsində gördüklərimiz də bunları deməyə əsas verir. Hərbi hissənin döyüş fəaliyyəti ilə yaxından tanışlığımız maneəqurma bölüyünün şəxsi heyətinin növbəti məşğələsindən başlayır.*



Kapitan Fərid Əliyevlə birlikdə şərti düşmənin mina sahəsindən keçidlərin açılması məşğələsini izləyirik. Zabit mövzunun mahiyyətini açıqlayaraq qeyd edir ki, məqsədimiz gecə vaxtı mürəkkəb əməliyyat şəraitində mina sahəsindən keçidlərin açılması ilə bağlı əsgərlərin bacarığını və taqımların idarə edilməsini praktiki fəaliyyətdə yoxlamaq, şəxsi heyətin döyüşə hazırolma vərdişlərini təkmilləşdirmək, yaranmış şəraitə uyğun əsaslandırılmış qərar qəbul etmək, vəziyyəti qiymətləndirməkdir. Eyni zamanda məqsədimiz qarşıya qoyulan tapşırıqları yerinə yetirən zaman hərbi qulluqçuların mənəvi-psixoloji dözümlülüyünü artırmaqdır.

Söhbət əsnasında öyrənirəm ki, təlim zamanı maneəqurma bölüyünün şəxsi heyətinin qarşısına iki tapşırıq qoyulur. Birinci tapşırıq, qarşı tərəfdən hücumun qarşısını almaq məqsədilə lazımi mövqelərə minaların qurulmasından ibarətdir. İkinci tapşırıq isə bölmələrimiz hücum edərkən düşmənin mina sahəsindən keçidlərin açılmasını təmin etməkdən ibarətdir.

Bölük komandiri ilə birlikdə şəxsi heyətin həyata keçirdiyi ikinci tapşırığı izləyirik. Şəxsi heyət tədris vasaitlərindən istifadə etməklə şərti düşmənin ərazisinə doğru irəliləyir. Döyüş vəziyyətində olan şəxsi heyətin arasında vəzifə bölgüsü aparıldığı açıq-aydın görünür. Öndə olan baş istehkamçı qarşıya çıxan OZM, POMZ, idarəolunan mina kimi maneələri aşkar etdikdə əlində olan qarmaq vasitəsilə onları zərərsizləşdirir.

Baş istehkamçıdan arxada gələn ikinci və üçüncü heyət üzvü əlində olan mina axtaran cihazla qarşısında basdırılmış piyada və tank əleyhinə minaları aşkar edir, tapdığı minaların yanına mina işarəsi yazılan bayraqları basdırır. Həmin heyət irəliləməklə özündən sonra gələn heyətin də irəliləməsinə şərait yaradır. Digər heyət üzvləri isə mina sahəsinin keçidini nişanlayır, zolaq yaradır. Sonda heyətin 6-cı üzvü standart yol nişanlarını yerə bərkidir.

- Zolaq ona görə yaradılır ki, şəxsi heyətin həmin zolaq vasitəsilə irəliləməsi təmin olunsun, - deyə bölük komandiri bildirir. - Nişanlar isə avtomobillə, yaxud da piyada hərəkət edən bölmələrimizin təhlükəsizliyini təmin edir. Bölmələrin şəxsi heyəti onlar üçün ayrılan rəngi götürərək keçid açılan istiqamətdə hərəkət edir. Komandir isə bütün bu prosesi diqqətlə izləyir. Onu da demək istəyirəm ki, bir neçə saat ərzində xeyli məsafəni minalardan təmizləmək mümkündür.

Bölük komandiri onu da qeyd etdi ki, sonda bütün heyət təhlükəsiz məsafəyə çəkilir və partlayış həyata keçirilir. "Həmin partlayışdan dərhal sonra bölmələrimiz də hücuma keçib düşməni məhv edirlər".

"Mina sahəsindən keçidlərin açılması zamanı şəxsi heyətdən hər hansı özəllik tələb olunurmu" sualına cavab olaraq həmsöhbətim bildirdi ki, gecə vaxtı səssizliyə mütləq riayət olunmalıdır: "Bundan başqa hər hansı bir işıq yaradan vasitələrdən istifadə olunması qadağandır. Həmçinin qarşıda hər hansı tanınmamış mina aşkarlanarsa, həmin vaxt heyət üzvləri özünü itirməməli, ərazini nişanlamalıdır. Arxada gələn növbəti heyət isə onu aşkarlayıb üzərinə tratil qoymaqla məhvinə nail olmalıdır. Keçirilən təlim taktiki məşğələ şəxsi heyətdə vərdişlərin formalaşması və istənilən çatışmazlığın aradan qaldırılmasına xidmət edir".

Təlim meydançasında, həmçinin piyada əleyhinə minalanmış sahələrdən keçidlərin açılması üçün nəzərdə tutulmuş müasir mühəndis-silahlanma vasitəsilə keçidaçma prosesi də həyata keçirilirdi. Bölük komandiri ilə birlikdə həmin qurğunun yerləşdiyi yerə yaxınlaşırıq.

Əsgər Abdulla Əsədli qurğu haqqında onu bildirdi ki, manqanın düşmən üzərinə keçidini təmin emək üçün cığır açmaq vasitəsidir. Qurğu atış zamanı qarşısına çıxan, əsasən piyada əleyhinə minaları və yerdən olan yüngül partlamayan maneələri məhv etməklə keçid açır.

- Açdığı keçiddən istifadə edən şəxsi heyət düşmənin üzərinə hücuma keçə bilir, - deyə əsgər İbadulla Zeynalov söylədi. - Bütün gördüklərimizi nəzəri baxımdan öyrənir və praktiki baxımdan tətbiq edirik. Əldə etdiyimiz təcrübə tezliklə döyüş meydanında gərəyimiz olacaq.



Söhbətə təcrübəli əsgər Kamandar Nadirov da qoşuldu və əslən Kəlbəcər rayonundan olduğunu qeyd etdi. "Bəlkə də inanmazsınız, Kəlbəcəri görmədiyimə baxmayaraq hər gecə yuxuma girir. Bu gün Vətənin keşiyində dayanmaq mənə də nəsib olub. On dörd aylıq zaman kəsiyini arxada qoymuşam. İnanıram ki, gözəl təbiəti olan Kəlbəcərimiz uğrunda döyüşmək tezliklə nəsibim olacaq. Valideynlərim qürur duyacaq ki, oğlumuz da torpaqlarımızın azad olunması prosesində iştirak edib."

Göygöl rayonundan olan Cavidan Hacıyev isə qeyd etdi ki, vacib tapşırığı yerinə yetirmək üçün hər bir əsgər hərtərəfli vərdişlərə malik olmalıdır: "Məsələn, mən zirehli texnikada operatoram. Əgər texnika zədələnərsə, artıq istehkamçı kimi fəaliyyət göstərməyi də bacarmalıyam. Dediyim odur ki, hər bir əsgər həm də düşməni məhv etməyi düşünməlidir.

Əsgərlər Elmir Əliyev, Nəriman Hüseynzadə, Osman Məmmədov, Yaqub Muradov və Cəfərqulu Zeynalov yoldaşları ilə həmrəy olaraq bildirdilər ki, bilik, təcrübə, nizam-intizam və ən əsası Vətən sevgisi onlara qələbə əzmi aşılayır.

Qələbə çox uzaqda deyil, inancı düşüncələrimizə hakimdi. Nəhayət, tezliklə torpaqlarımızı azad edəcək, inanclarımıza işıq salacaq oğullarımıza - Yolunuz işıqlı olsun! - arzusunu diləyib onlardan ayrılırıq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Hərbi təhsil*

# Qüdrətli ordumuzun gələcək zabitləri

## Azərbaycanda gənclərin hərbi peşələrə marağı ildən-ilə artır

*Mustafa Kamal Atatürk deyirdi ki, "sülh istəyən xalq hərbə hazır olmalıdı". Çox dəyərli kəlamdır. Xalqımız müharibə arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarıdır. Lakin ərazi bütövlüyümüzə yönələn istənilən qəsdin qarşısını almağa hər an hazırdır.*



Ordu dövlətin suverenliyi və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvələrdəndir. Ordunun gücünü şərtləndirən əsas amillərdən biri isə təcrübəli zabitlərdir. Əsas mahiyyəti Vətəni qorumaqdan ibarət olan zabit peşəsi müqəddəs peşələrdən biridir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi neçə illərdir ki, ordumuza layiqli zabitlər hazırlayır. Kursantlar tədris ilinə başlamazdan öncə təlim keçirlər. Məktəb rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Mikayıl Hüseynov bildirdi ki, bu sahəni seçən gənclərimizin sayı ilbəil artmaqdadır. "Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün sahələrlə yanaşı ordu quruculuğuna olan diqqət, qayğı və bu sahədə həyata keçirilən islahatlar da göz önündədir. Ürəyi Vətən, millət, bayraq, torpaq sevgisi ilə döyünən gənclərimiz böyük həvəslə zabit peşəsini seçirlər. Silahlı Qüvvələrimizin bacarıqlı zabit kadrları ilə təmin edilməsi üçün hazırda məktəbimizdə bütün imkanlar mövcuddur".



Ümummilli liderimiz Heydər Əliyevin gələcəyimizin etibarlı təminatçılarına xitabən dediyi "Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir" kəlamını xatırlayıram. Müasir gənclərimiz də öz üzərlərinə düşən vəzifəni dərk edir və seçdikləri peşələrə daha dərindən yiyələnməyə çalışırlar.

Təlimi izləməkdə mənə yardımçı olan polkovnik-leytenant Malik Ramazanov bir zamanlar bu təhsil ocağının kursantı olub. Ön cəbhədə xidmət etmiş zabit qeyd etdi ki, bu gün gənclərimiz vətənpərvər, Vətənə sədaqət ruhunda formalaşırlar. "Burada dərslər döyüş yolu keçmiş təcrübəli zabitlər tərəfindən tədris olunur. Bununla bərabər çöl çıxışları da olur. Çöl çıxışlarında kursantlar nəzəri biliklərini praktik sınaqdan çıxarmaq imkanı qazanırlar. Ən ümdə vəzifəmiz ordumuza bilikli, peşəkar, vətənpərvər zabitlər hazırlamaqdır...".

Taqım komandiri baş leytenant Təbriz Müslümov kursantlara "Silahsız və silahla sıra üsulları" mövzusunu növbəti məşğələdə izah edirdi. Bacarıqlı hərbçi sıra hazırlığı üçün əhəmiyyət kəsb edən vərdişləri gələcəyin zabitlərinə aşılayırdı.

Sırada hərəkət qaydalarını isə digər taqım komandiri leytenant Tural Əsgərov səbrlə kursantlara başa salırdı. Sıra duruşu, yerində dönmə, sıradan çıxma və rəisə yaxınlaşma əyani şəkildə göstərilirdi.

Fasilə vaxtı bir qrup kursantla onlara hərb sənətini sevdirən səbəblər haqqında söhbətləşdik.

Mehman Eyniyev Cəlilabad rayonunun Göytəpə kəndində anadan olub. İlk hərbi təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə alıb. Uşaq yaşlarından vurğunu olduğu qəhrəmanlıq mövzusunda olan filmlərə, xüsusən də iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov haqqında çəkilən filmə həvəslə baxardı. Ön cəbhədə xidmət edən qardaşıyla bağlı xatirələrini bölüşən Mehman zabit kimi xidmətə başlayacağı günü səbrsizliklə gözləyir.

Heydər Əliyev adına Hərbi Liseyin məzunu olan Zəka Həsənovun atası müharibə veteranıdı. Babək rayonunun Sirab kəndindən olan kursant deyir ki, oxuduğu orta məktəbdə hər il Xocalı faciəsinin anım tədbiri keçirilirdi. "Müəllimimiz faciə haqqında geniş məlumat verəndə, körpə şəhidlərimizin şəkillərinə baxanda dişimi dodaqlarıma sıxırdım. Özümə söz verirdim ki, şəhidlərimizin qisasının alınmasında mən də iştirak edəcəm. Həm də Azərbaycan zabiti kimi..."...

- Daim düşünmüşəm ki, insan gözlərini həyata Vətən sevgisiylə açır. Zaman keçdikcə bu sevgi daha da müqəddəsləşir, - deyən Emil Salahov da öz fikirlərini bölüşür:

- Gözümü açandan hərbi forma görmüşəm. Vətən sevgisini ilk dəfə ailəmizdə öyrənmişəm. Yaxınlarımın əksəriyyəti hərbçidir. Məndən "Kim olacaqsan?" soruşanlara həmişə "General olacam" deyərdim...

Vətənpərvər gəncin səsindən arzularını həyata keçirəcəyinin qətiyyətini hiss edirəm.

Aqil Hüseynov isə Kürdəmir rayonunda şəhid Rüstəm Quliyevin adını daşıyan orta məktəbi bitirib. Vətəninə, millətinə layiqli övlad olacağına da elə həmin şəhidin xatirə lövhəsi qarşısında söz verib.

Rüfət Abdullayev də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarındandır. Atasının ən həssas, dönməz arzusu övladını zabit formasında görmək idi. Ona görə də Rüfətin bu seçimi hamıdan çox atasına sevinc yaşatmışdı.

Atası, əmisi və qardaşı hərbçi kimi xidmət edən Adil Əliyev Naxçıvanda dünyaya göz açıb. Aprel hadisələri zamanı Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan gənc "O günlərdə biz də kursant mundirimizi döyüşçü formasına dəyişməyə hazır idik..." - deyir.



Söhbətimizi diqqətlə dinləyən Araz Qarayev Ağdam rayonundandır. Ərazilərimizin, yaşayış məntəqələrimizin mütəmadi olaraq düşmən tərəfindən hədəf seçildiyini görə-görə böyüyüb. Və buna görə də intiqam hissi qəlbinə hakim kəsilib. "Azərbaycanlıyam deyən hər bir kəsin birinci vəzifəsi Vətənini sevmək, onu qorumağa hazır olmaqdı..." - düşüncəsiylə yaşayır.

Söhbətə qoşulan Kamal Məmmədov bildirdi ki, bir hərbçi qohumumgilə hər dəfə gedəndə onun hərbi formasını geyinib, güzgü qarşısında dayanardım. "O anlarda ürəyimdən nələr keçməzdi, nələr. Xəyallarımın ilk sevincini Ulu Öndərimizin adını daşıyan Hərbi Liseyə daxil olanda yaşadım."

Mirqəfər Cabbarlı dedi ki, Neftçala rayonunun Bankə qəsəbəsində boya-başa çatıb. Həmin qəsəbənin yaxınlığında Seyidlər qəbiristanlığı adlanan ərazidə on turk əsgərinin məzarı və xatirələrinə ucaldılan abidə var. Onlar 1918-ci ildə ermənilərin xalqımızın başına gətirdiyi dəhşətlər zamanı köməyə gələn Nuru Paşanın qəhrəman əsgərləridi. Hər il bu abidə ziyarət olunur, xalqımız öz xilaskarlarına ehtiramını bildirir. Belə tədbirlərin birində iştirak edən məktəbli Mirqəfər də zabit olmağı düşünür...

Həmyerlisi, Azərbaycanın Milli Qəhrəmanı Samid İmanovu da ehtiramla xatırlayan müsahibim "əzəli torpaqlarımız azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq" sözlərini qətiyyətlə söylədi.

Fərhad Əliyevdə də bu peşəyə sevgi uşaq yaşlarından yaranıb:

- Hərbi peşə insandan fiziki hazırlıq, nizam-intizam, dövlətə, Vətənə sədaqət, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir. Qardaşım da zabitdir. Hərb sənətinə, formaya olan sevgimi heç nə ilə müqayisə edə bilmərəm.

Bəli, bu gün cəmiyyətimizdə Vətənimizin parlaq gələcəyində rolunu dərk edən mübariz nəsil yetişir. Bu gənclər də Azərbaycanın layiqli zabitlərinin sıralarına qoşulacaqları günün həsrəti ilə yaşayırlar.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# "Əsgər oğul, ürəyini aç mənə" - yeni layihənin icrasına başlanıb

*Cəbhə bölgələrində, xüsusilə döyüş mövqelərində xidmət keçən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun və vətənpərvərlik hissinin daha da yüksəldilməsi məqsədilə yeni layihənin icrasına başlanılıb.*



Elm, mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin, görkəmli psixoloqların, eləcə də ictimaiyyət nümayəndələrinin cəlb edildiyi tədbirlərdə fərdi və kompleks yanaşma üsulu ilə hərbi qulluqçuların mənəvi-psixoloji durumu öyrənilir, arzu və təklifləri nəzərə alınır, reabilitasiya tədbirləri həyata keçirilir. Əgər bir əsgər özünə qapanıbsa, ürəyində gizli saxladığı hər hansı bir sirri varsa, onun qəlbinə yol açılır, emosional təsir vasitələrinin: canlı sözün, musiqinin, ağsaqqal məsləhətinin təsiri ilə daxili aləmi öyrənilərək narahatlıq və həyəcanına son qoyulur.

Düşmənlə təmas xəttində, zirvələrdəki ön səngərlərdə təşkil olunan görüşlərdə Müdafiə Nazirliyinin əməkdaşı Abdulla Qurbani, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar İncəsənət xadimi, şair-publisist Barat Vüsal, Gəncə Dövlət Pedaqoji Universitetinin qocaman dosenti, ədəbiyyatşünas-alim Aydın Nağdəliyev Vətən müdafiəçiləri ilə səmimi söhbət edib, onları maraqlandıran sualları cavablandırıb, Azərbaycan ədəbiyyatında Vətən, vətənpərvərlik, Vətənin müdafiəsi, qəhrəmanlıq ənənələri barədə ətraflı məlumat veriblər.

Barat Vüsal yeni şeirlərini oxuyub, Aydın Nağdəliyev Oğuz elinin ağsaqqalı Dədə Qorqudun deyimləri ilə döyüşçülərə öyüd-nəsihət verib, "İgidin başına hər nə gəlibsə, uyğudan gəlib", - deyə onları hər an döyüş mövqeyində ayıq-sayıq, ehtiyatlı olmağa çağırıb.



Əsgərlər qonaqlara ürəklərini açıb, işğal altında olan torpaqları azad etməkdən başqa özgə problemlərinin olmadığını deyiblər.

Layihənin müəllifi, Əməkdar İncəsənət xadimi A.Qurbani bildirib ki, bu kimi tədbirlər şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında formalaşmasına, öz vəzifə məsuliyyətlərini daha da dərindən dərk etmələrinə, bütün qayğılardan uzaq olaraq yalnız Vətənə sevgi, dövlətə sədaqətlə milli təhlükəsizliyimizi etibarlı şəkildə qorumalara möhkəm zəmin yaradır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Riçard Houqland ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair siyasətinin altı elementini bir daha vurğulayıb

*AZƏRTAC-ın məlumatına görə, ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri vəzifəsini müvəqqəti icra edən səfir Riçard Houqland bu günlərdə erməni və azərbaycanlı jurnalistlərlə görüşüb. Brifinq ABŞ Dövlət Departamentinin əcnəbi jurnalistlər üçün mətbuat mərkəzi tərəfindən təşkil edilib.*

Səfir ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair rəsmi siyasətinin prinsiplərini jurnalistlərə təqdim edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyət barədə öz fikirlərini bölüşən səfir bu münaqişənin tənzimlənməsinə dair ABŞ-ın siyasətinin əsas prinsiplərindən söhbət açıb. O, deyib ki, tənzimləmənin əsasını BMT-nin Nizamnaməsi, müvafiq beynəlxalq hüquqi sənədlər və Helsinki Yekun Aktının əsas prinsipləri təşkil edir. Madrid prinsiplərinə əsaslanan daha altı element sülh sazişinin tərkib hissəsi olmalı və vahid paket kimi qəbul edilməlidir. Birinci element ondan ibarətdir ki, tərəflər Dağlıq Qarabağa müvəqqəti status verməli, onun qəti hüquqi statusu gələcəyə keçirilməli və tərəflərin qarşılıqlı razılığı ilə onların iradəsinin ifadə olunması vasitəsilə müəyyən edilməlidir. İkinci element keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) inzibati sərhədləri daxilində hazırda rəsmi Bakı tərəfindən nəzarət edilməyən əraziyə müvəqqəti status verilməsini nəzərdə tutur və həmin dövrdə təhlükəsizliyə və özünüidarəyə minimal zəmanəti təmin edir. Üçüncü element ondan ibarətdir ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilər Azərbaycanın nəzarəti altına qaytarılmalıdır, çünki Azərbaycanın suverenliyinə hörmət edilmədən tənzimləmə ola bilməz. Dördüncü element Laçından keçməklə Dağlıq Qarabağı Ermənistanla birləşdirən "dəhliz"in mövcud olmasını nəzərdə tutur və həmin dəhliz hərəkət etmək üçün yetərincə geniş olmalı, lakin bütün Laçın rayonunu əhatə etməməlidir. Beşinci element məcburi köçkünlərə və qaçqınlara əvvəlki daimi yaşayış yerlərinə qayıtmaq hüququ verilməsindən ibarətdir. Nəhayət, altıncı element sülhyaratma əməliyyatı da daxil olmaqla təhlükəsizliyə beynəlxalq zəmanətləri nəzərdə tutur.

Riçard Houqland jurnalistlərin suallarına cavab verərkən qeyd edib ki, ATƏT-in Minsk qrupunun amerikalı həmsədrlərinin və ya ABŞ administrasiyalarının dəyişməsindən asılı olmayaraq, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair ABŞ-ın bu siyasəti dəyişmir.

*Tarix*

# Repressiyanın qurbanı olmuş azərbaycanlı hərbçilər

1937-1938-ci illərin repressiyası zülmətin at oynatdığı illər idi. Bu illəri xalqımızın yaddaşından necə silmək olar? Heç zaman! O qara günlərin qırmızı terrorundan 80 il ötür... Əslində 1920-ci ildən başlanan qırmızı terror 1937-1938-ci illərdə özünün "pik" nöqtəsinə çatdı. Dövlət rəhbərliyi Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın və digərlərinin əli ilə 70-80 min ziyalımızı, alimi, şairi, yazıçını, hərbçini, ictimai-siyasi və din xadimini, bir sözlə qeyri-adi təfəkkür sahiblərini məhv etdi. Ölüm və cəza maşını fasiləsiz işləyirdi. Hər bir "xalq düşməninə" "məhkəmə" zamanı, ancaq 15 dəqiqə zaman ayrılırdı. Tək-tək hallarda bu zaman 20 dəqiqəyə çatdırılırdı. Bu zəka sahiblərinə məhkəmə qərarını - ölüm hökmünü, fövqəladə üçlük verirdi. Bakıda belə iclasları Vısinskinin müavini, bəşər övladının qatili Matuleviç, öz əlaltıları Zaryanov və Ziqurla birgə aparırdı. Biz, ancaq Bakıdan danışırıq. Kim deyə bilər ki, Azərbaycanın kənd və rayonlarında bu fövqəladə üçlüyün xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdi? Xüsusi düşərgələrə sürgün edilmiş "xalq" düşmənlərinin ailə üzvlərinin təxmini sayını kim deyə bilər? Tarixə dəqiq say məlum deyil. Yalnız təxmini hesablamalar məlumdu.

1937-nin qara küləyi bizim nəslin də sakit günlərini fırtınanın, tufanın ağuşuna atdı. Qara eynəkli, qara geyimli, qara maşınlı "adam"lar bizim də qapımızı qəflətən, xəbərsiz-ətərsiz döyüb, sorğu-sualsız, dostdoğma xalamın 32 yaşında cavan həyat yoldaşına "getməlisən" deyib gedərgəlməzə yola saldılar. Şirinov Əhli Nuhu oğlu İmişli rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışırdı. Xalqa, dövlətə sadiq rəhbər, partiya işçisiydi. 1938-ci il martın 17-də Nargin adasında güllələnir.

1937-38-ci ilin qara yeli demək olar ki, Azərbaycanda hər beş evdən birində əsmişdi. Dözülməz işgəncələr, soyuq Rusiya çöllərində əzablı Sibir sürgünləri ilə əvəz edilmişdi.

1937-ci ilin çoxsaylı qurbanları arasında 77-ci milli atıcı diviziyasının zabitləri də var idi. Diviziyanın ilk komandiri general Cəmşid Naxçıvanskidən (C.Naxçıvanski 1938-ci ildə repressiya olunaraq Moskvada güllələnir) sonra komandir təyin olunan general-mayor Qambay Vəzirov da başda olmaqla demək olar ki, diviziyanın bütün zabitləri Azərbaycanı SSRİ-dən ayırmaq üçün "hərbi - faşist qəsdində" təqsirləndirilib güllələndi. 13896 saylı istintaq işi ilə bağlı məhkum olunan Vətənini, Azərbaycanı canından artıq sevən milli zabitlərimiz qırmızı terrorun qurbanı oldular.

Diviziyanın 230-cu alayının zabitlərindən biri rota komandiri kapitan Sanıyev Kəbi Murad oğlunun "cinayət işi" də erməni məmurları tərəfindən hazırlanmış azərbaycanlı zabitlərin qəddarcasına məhv edilməsi planlarının tərkib hissəsi idi.

Arayışda qeyd olunur: "Sanıyev Kəbi Murad oğlu 1902-ci ildə anadan olmuş, keçmiş mülkədar oğlu, 77-ci diviziyanın 230-cu alayının rota komandiri, kapitan, bitərəf Azərbaycan SSR XDİK orqanları tərəfindən aşkara çıxarılmış "Azərbaycan Milli Partiyası" deyilən partiyaya daxil olan hərbi qəsdçi, əksinqilabçı, millətçi təşkilatının üzvüdür" və s. saxta ittihamlarla dolu olan arayışa XDİK komissarı Sumbatov "həbs edilməsinə razıyam" dərkənarı qoyur. 1937-ci il avqustun 13-də 1069 saylı orderə əsasən kapitan Kəbi Sanıyev həbs olunur. Digər yoldaşları ilə birlikdə yalan dolu saxta ittihamları qəbul etməyən Sanıyev ağır işgəncələrə məruz qalır.

Aparılan araşdırmalardan o da məlum olur ki, 77-ci diviziyanın komandiri general-mayor Qambay Vəzirov və iyulun 15-də həbs edilmiş mayor Mürsəl İbrahimov, diviziyanın komissarı Abdulla Məlikov da eyni tarixdə güllələnmişlər.

1955-ci il martın 28-də Kəbi Sanıyevin oğlu Eldar Sanıyev Azərbaycan SSR Prokurorluğuna belə bir ərizə ilə müraciət edir:

"Ərizə ilə sizdən xahiş edirəm ki, mənim atam Sanıyev Kəbi Murad oğlu 1937-ci il avqust ayında Kirovabad şəhərində həbs edilmişdir. 1937-ci ildən hal-hazıra kimi atamdan heç bir məktub almamışam. Xahiş edirəm, indi onun nə səbəbə tutulması və sağ olub-olmaması barədə mənə məlumat verəsiniz."

Murad Sanıyevin atası haqqında yazdığı məktubdan yalnız 2 il sonra 1957-ci il iyunun 25-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının çıxardığı qərarda qeyd olunur ki, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Sanıyev Kəbi Murad oğlu barəsində 1937-ci il 13 oktyabr tarixli hökmü ləğv olunsun, işinə isə tərkibində cinayət əlamətləri olmadığına görə xitam verilsin.

1937-1938-ci illərdə repressiyaya məruz qalmış azərbaycanlı hərbi qulluqçuların adları hərb tariximizə qızıl hərflərlə yazılıb. Onların keçdiyi şərəfli ömür yolu isə Silahlı Qüvvələrimizin şəxsi heyətinə örnəkdir.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Veteranın yubileyi qeyd edilib

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında ehtiyatda olan polkovnik Adil Haqverdiyevin 75 illik yubileyinə həsr edilən tədbir keçirilib.*



AZƏRTAC xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, veteranlar, yubilyarın xidmət, eləcə də döyüş yoldaşları, Respublika Veteranlar Təşkilatının kollektivi və digər şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov A.Haqverdiyevin keçdiyi həyat yolundan, xidmət illərindən, hazırda gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsindəki fəaliyyətindən danışıb. Bildirib ki, Adil Haqverdiyev 1942-ci il avqustun 20-də Cəbrayıl rayonunun Dağtumas kəndində anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin təcrübəli hərbçisi, Əfqanıstan və Qarabağ müharibəsi veteranıdır. A.Haqverdiyevin peşəkar hərbçi kimi həyatının 40 ilə yaxın bir dövrü ordu ilə, Silahlı Qüvvələrlə bağlı olub. Öz istəyi ilə seçdiyi bu mürəkkəb və şərəfli yol Xarkov Ali Hərbi Tank Qoşunları Komandanlığı məktəbini bitirdiyi 1964-cü ildən başlanıb, Ukraynadan, Rusiyadan, Moldovadan, Özbəkistandan, Əfqanıstandan keçərək nəhayət, doğma Azərbaycana qədər uzanıb. O, müxtəlif hərbi hissələrdə yüksək vəzifələrdə olub, Əfqanıstanda, Qarabağda döyüş əməliyyatlarında iştirak edib, hərbi tədrislə məşğul olduğu illərdə də eyni həvəs və məsuliyyətlə çalışıb, vəzifə borcuna daim sadiq qalıb. 1975-ci ildə Moskvada M.B.Frunze adına Hərbi Akademiyanı bitirmiş azsaylı azərbaycanlılardan biri kimi Vətənin çətin günündə övladlıq borcunu layiqincə yerinə yetirib, öz biliyini, təcrübəsini doğma Azərbaycan torpaqlarının müdafiəsinə həsr edib, iki dəfə yaralansa da, mövqeyini tərk etməyib. Xidməti vəzifələrin öhdəsindən layiqincə gəldiyinə görə A.Haqverdiyev komandanlıq tərəfindən dəfələrlə müxtəlif mükafatlara və təltiflərə layiq görülüb.



A.Haqverdiyev 2015-ci ildən bu günədək Respublika Veteranlar Təşkilatının şöbə müdiri kimi, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində ardıcıl və səmərəli fəaliyyət göstərir. Hazırda 75 yaşının tamam olduğu vaxtda da yenə sırada olmaqla gənc peşəkarlar nəslinin yetişdirilməsində yaxından iştirak edir, bilik və bacarığını əsirgəmir.

Digər çıxış edənlər yubilyarı təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıblar.

Sonda A.Haqverdiyev xoş sözlərə görə minnətdarlığını ifadə edərək, peşəkar hərbçi kimi torpaqlarımızın azadlığı uğrunda hər zaman döyüşməyə hazır olduğunu və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini bildirib.

*Gənc zabitlərimiz*

# “Seçdiyim peşəyə ürəkdən bağlıyam”



*Yay fəslini yaşayırıq. Al-əlvan rəngə boyanan təbiət, rəngli çiçəklər, quşların cəh-cəhi, dadlı meyvələri ilə seçilir, bu fəsil. Yay həm də qızmar istilərin fəslidir. Qızmar günəş şüalarından qorunmaq üçün meşədə, dənizdə, çay kənarında doyunca dincəlmək keçir könlümüzdən. Lakin bu yerlərdə nə meşə var, nə də ki, ləpələnən dəniz... Bura düzənlikdə yerləşən bir hərbi hissənin ərazisidir.*

Müqəddəs sıra meydanında əsgərlərinə ordu həyatının sirlərini aşılayan gənc bir zabitlə tanış oluram. Bütünlükdə ömrünü seçdiyi müqəddəs peşəyə həsr edib.

Sıra məşğələsini izlədikcə düşüncələrimdə zabitə böyük rəğbətim yaranır. Sıra hazırlığının sirlərini öyrədən zabit, əsgərlərlə bir yerdə lazım olan hərəkətləri yerinə yetirir.

Əslən Sumqayıtdan olan baş leytenant Ramin Bədəlov 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub. Düşmənlə təmas bölgəsində yerləşən bu hərbi hissədə bölük komandiri vəzifəsində xidmət edir. Hərbçi peşəsinə onu hansı arzunun gətirdiyini öyrənirəm. Atası və əmisinin də hərbçi olduğunu deyən gənc zabit sözə başlayır:

- Atamla əmimin hərbçi olması ürəyimdə hərb peşəsinə sevgini hələ uşaq yaşlarımda yaratmışdı. Sonra böyüyüb orta məktəbə getdim. Böyüdükcə atamgildən, yaşlılardan ermənilərin torpaqlarımıza basqınları barədə çox eşitdim, öyrəndim. Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olan qəhrəman oğullarımızın, vəhşiliklə qətlə yetirilən ana-bacılarımızın intiqam hissi məni hərbçi olmağa sövq etdi. Yetkin yaşıma çatdıqda atama dedim ki, mən də hərbçi olub ermənilərdən qisas alacam. Körpələrimizi, yaşlılarımızı qadın-kişi demədən qətlə yetirən erməni dığalarını torpaqlarımızdan qovacağam. Torpaqlarımızı işğaldan azad etmək üçün döyüşəcəm. Bu qərarıma atam çox sevindi. Tez telefonu götürüb əmimə zəng vurdu və sevincini onunla bölüşdü. Hər ikisi mənə böyük mənəvi dəstək olaraq dedilər ki, "oğul, çox düzgün seçim etmisən. 90-cı illərdən fərqli olaraq artıq bizim nizami, maddi-texniki təminatı yüksək, regionda sözünü deyən ordumuz var. İnşallah, tezliklə səni bu şanlı ordunun sıralarında görərik".



...Ulu Öndərimiz Heydər Əliyevin bir sözünü xatırlayıram: "zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır". Ramin də bu müqəddəs vəzifəni daşıyan gənclərdəndir. Zabit ailəsində böyüyüb və ata yolunun davamçısı olub. Çətin, amma şərəfli peşə seçib. Vətəni ana qucağı, səngərləri doğma ev, Vətən daşını yastıq edib özünə. İlk gündən özünə söz verib ki, savadlı və bacarıqlı zabit olacaq, torpaqlarımıza göz dikən düşməndən qisas alacaq.

O, söhbətinə davam edərək zabit peşəsinin çətin, lakin şərəfli olduğunu bildirir. "Zabit peşəsi çətin peşədir. Yaxınlarından, sevdiklərindən uzaq düşürsən. Onlar toyda, nişanda vaxt keçirəndə sən döyüş postundasan. Sən canını düşmənə sipər edirsən. Arxada isə, sənin xalqın dayanır. Körpələrin, yaşlıların, ata-anaların, bacı-qardaşların dayanır. Və yaxınlarından biri ilə danışdıqda sənə deyir ki, “biz sizlərə güvənirik, Allah sizi qorusun, siz orada olmasanız, biz burada rahat-firəvan yaşaya bilmərik”. Bu sözləri eşitdikdə xalqın güvənci olmağından fərəhlənir, seçdiyin peşə ilə qürurlanırsan.

Gənc zabitin aprel döyüşlərinin də iştirakçısı olduğunu öyrənirəm.

“Aprel döyüşlərində Tapqaraqoyunlu, Talış istiqamətində bir neçə gün davam edən döyüşlərdə düşməni məğlubiyyətə uğratdıq. Lakin düşmənə olan qəzəbim, nifrətim azalmır. Çünki, hələ yağıların tapdağında torpaqlarımız var”.

Qoy düşmən bilsin ki, Azərbaycan Ordusunun Ramin kimi vətənpərvər, bacarıqlı zabitləri var. Və bu oğullar döyüş meydanında son damla qanına qədər vuruşan igidlərdir.

Gənc zabit üzərinə düşən vəzifələrdən danışır. Şəxsi heyətin yüksək əhval-ruhiyyədə xidmət etdiyini, nizam-intizamlı, bacarıqlı əsgərlər olduğunu vurğulayır. O, əsgərlərindən danışarkən düşüncələrə dalır, öz komandirindən söz açır. "Hərbi liseydə kursant olarkən tabor komandirimi - zabit Mübariz Rzayevi özümə ideal seçdim. Mən də onun kimi tələbkar, ədalətli, qayğıkeş, vətənpərvər zabit olacağıma söz verdim. Və bu gün əsgərlərimi yüksək döyüş ruhunda tərbiyə etmək, Vətənimizə sədaqətlə xidmət edən döyüşçülər kimi yetişdirmək üçün bütün biliklərimi səfərbər edirəm", - deyir Ramin.

Danışdıqca simasında sevinc və həyəcan əks olunur. “Seçdiyim peşəyə ürəkdən bağlıyam”, - deyən zabitin qürurlu baxışları da sübut edir ki, zabit peşəsi doğrudan da ən müqəddəs peşələrdən biridir. Çünki, bu peşənin sahibləri Vətəni son nəfəslərinədək qoruyur, ona ürəkdən bağlanırlar. Bu igid oğullar Vətənin hər qarış torpağı uğrunda canları bahasına döyüşə atılmağa hər an hazırdılar.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

*Düşüncələr*

# Qələbənin işığını görürük!..

Hərdən "gözüm gözünüzdən uzaq olsa da könüldən könülə yollar göründüyünə" siz də inanırsınız, mən də. O yolun sonunda siz varsınız, sizin ürəyinizdən keçən yolun sonunda - Böyük Qələbə.

Sizinlə hər görüşü ömrümə qazanc bilirəm. Sizinlə hər kəlmələşəndə elə bilirəm dünya mənimdi. "Hər sadə, mürəkkəb cümləmizin də mübtədası" Vətən olur, torpaq olur, hərbi xidmət, döyüş növbətçiliyi, atəşkəsin pozulması və s. olur. Hər kəlməni böyük bir sevginin zərrəsi bilirəm. Bu sevgi Vətən sevgisidi; Vətən sevginizin işığında Böyük Qələbəmiz aydınlığıyla görünür!..




Çox qədim tarixi olan Azərbaycanımızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın qorunması, ona yad nəfəsi dəyməməsi üçün hərbi xidmətdəsiniz. Ən güclü silahınız Vətən sevgisidi. Vətəni sevə-sevə xidmət edirsiniz, Vətəni xidmət edə-edə sevirsiniz. Sevəni sevdirməyə qadir olan bu sevgi müqəddəs sevgidi; sizləri əzizimiz bilirik. Dili təzə-təzə söz tutan, ana deyən körpələrin, Vətən, bayraq deyən uşaqların əzizisiniz. Tariximizi, mədəniyyətimizi, dilimizi sevənlərin əzizisiniz. Atalar əminizdi, dayınızdı, analar xalanızdı, bibinizdi, oğlanlar qardaşınızdı, qızlar bacınızdı. Anaların səksəkəli yuxularının əsgərisiniz, körpələrin layla payının əsgərisiniz, ağsaqqalların sabahlarımıza inamının əsgərisiniz, şəhidlərin ruhunun, qazilərin məsləhətlərinin, tövsiyələrinin əsgərisiniz. Hər birinizdə Antey qüdrəti var - torpağımıza varlığınızla bağlısınız. Ona görə güclüsünüz, qüdrətlisiniz, yenilməzsiniz.

Döyüş növbətçiliyinə Mübariz, Murad, Samid, ... hünəriylə - aprel döyüşlərinin ovqatıyla gedirsiniz. O qələbəni qazanan əsgəri yeni mövqelərdə siz əvəzləyirsiniz. Böyük Qələbənin əsgəri olmağı arzulayırsınız. Son görüşümüzdə əsgər Rəhman Qasımov Çingiz Qurbanovun qəhrəmanlığını xatırlatmışdı. Əsgər yoldaşlarını göstərib, "Çingizin yolunu bunlar davam etdirəcək, biz davam etdirəcəyik!" - demişdi. Bu dönməz ünsiyyəti Böyük Qələbənin müjdəsi bilmişdim. Onu da, silahdaşlarını da bağrıma basmışdım. Onda həzin-həzin yel əsirdi. Onda payızıydı, indi yaydı...

Gədəbəydə dəniz səviyyəsindən neçə min metr yüksəklikdəydik. Göyçə gölümüzün dalğalarının tərpənişini hiss etməsək də pıçıltısını duyurduq: "Yaman aralı düşdünüz, yaman aralı düşdük...". Zabitlərdən biri ürəyinin gözüylə gölün bəri səmtindəki kəndə baxırdı. Gözlərini qırpmadan baxırdı. Onda əsgər qardaşlarınızdan birinin qəhər yüklü səsini eşitmişdim: "Komandirin kəndidi. Ata yurduna dönəcəyi gün komandirimiz üçün günlərin ən gözəli olacaq...". "Hələ Şuşanı, Ağdamı, Laçını, Kəlbəcəri, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı işğaldan azad etməliyik" - demişdi. Əsgər bir anlığa duruxmuşdu. Sonra alnını ovuşdurub, "Bayrağımızın kölgəsinə sığınanların hamısı ata yurdunun daş-divarına sığal çəkməlidi...", - demişdi.

Siz zamanında tarixlər yazmış bir xalqın əsgərisiniz, sabahlar üçün xidmət edirsiniz. İşğalda olan torpaqlarımızın yaralarının sızıltısı, giziltisi yuxularınızda gecələyir. Döyüş növbətçiliyinə gedəndə hərbi andın son kəlmələrini, himnimizin misralarını pıçıldayırsınız: Səndən ötrü can verməyə cümlə hazırız...

Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdi. Aprel döyüşləri həm də sizin mənəvi dünyanızın "xəritəsi", vətənsevərlik düsturu oldu. O da təsdiqləndi ki, bu vətənpərvərlik "dünyanın qara daşını da göyərtməyə" qadirdi...

Aprel döyüşlərində iştirak etmiş iki qardaşı xatırlayıram. İkisi də əsgər idi. İkisi də mərdliklə döyüşmüşdü. Böyük qardaş şəhid olmuşdu. Kiçik qardaş onu yola salanda "Şəhidliyin mübarək, qardaş!" - demişdi, yanağını qardaşının yanağına söykəmişdi...

Sarvan Mehrəliyev şəhid olanda cibində bir məktub varmış. Sarvan bu məktubu döyüş ərəfəsində yazıb. O məktubun məzmunu Azərbaycan əsgərinin mənəvi dünyasının söz təsdiqidi; Vətən sevgisinə sığınan bir sevgi serenadasıdı bu məktub:

"...Bəlkə səndən də gözəl qız var, mən səni sevdim. Bəlkə səndən də ağıllı qız var, mən səni sevdim. İndi döyüş əmri verildi. Döyüşə gedirəm. Şəhid olsam, köks ötürüb "Mən də səni sevirəm" pıçıldasan ruhum şad olar..."...

Necə kövrəlməyəsən? Belə duyğusal məktub səni necə kövrəltməyə bilər? Necə qürurlanmayasan? - əsgər döyüşə sevgisiylə gedir. Vətən sevgisidi bu, sevdiyi Vətəndə sevdiyi qıza etibardı, sədaqətdi. Budur Azərbaycan əsgərinin mənəvi dünyası! Budur Azərbaycan əsgərinin milli mentalitetimizə ehtiramı - zamanında sevdiyi qıza deyə bilmədiyini gərgin anlarda da unutmur. O qız kimdi - bəlkə də bilən yoxdu. Onu bilirəm ki, köks ötürmək nədi, göz yaşları o qızın yanağında közə dönüb.

Səngərin o üzünə baxanda qaşlarınız çatılır, yumruqlarınız düyünlənir, əliniz avtomatınızın qundağını sıxır. İşğala son qoymağa can atırsınız, milli-xəlqi ruhumuzun harayı da, ürəyiniz də sizi sərhəd bütövlüyümüzü təmin edəcəyiniz günə çəkir. Həmin gün indimizə də, yüz-yüz illərin, min-min illərin o üzünə də gözaydınlığı olacaq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan vermərik" - fikrini sizin ruh qardaşlarınız, sizdən sonra xidmətə başlayacaq oğullar təsdiqləyəcək. Sizin Vətənə sədaqətiniz ötən ilin aprelində yazda çaxan şimşək oldu, yağışdan sonra daşan, daşdanan selə döndü-coşdu, kükrədi. Düşmən "üzü suluykən" çəkilib getməsə, bu coşqu daha güclü, daha əzmkar, daha qətiyyətli olacaq. Bunu siz də bilirsiniz, biz də, dövlətimizə, dövlətçiliyimizə əyri baxanlar da...

Siz zamanında dünyaya yol göstərən bir xalqın əsgərisiniz. Kəhər atı kişnəyən, qılıncı kəsərdən düşməyən, yay-oxunun kirisi boşalmayan igidlərin ruhunun işığı ruhunuza hopub. Çöldə-düzdə düşmən teyləyənlərin, tərs əsən yelləri yolundan eləyənlərin, dostu duz-çörəklə, düşməni kəsərli qılıncla qarşılayanların ruh qardaşısınız. Qorunan sərhədin bu üzünə daş atanlara gen dünyanı dar eləyənlərin, Vətən deyib bağır basdığın ərazilərə xor baxanları xar eləyənlərin ruhu sənə alqışçıdı...

Ötən ilin aprelində əsgər qardaşlarının qazandığı qələbə sizin də qürurunuzun təntənəsi oldu. Onda məktəbliydiniz. İgidlər haqqında məqalələr, kitablar oxuya-oxuya, verilişlərə baxa-baxa əsgərləşirdiniz, igidləşirdiniz. Nə oxuyurdunuzsa, torpaq üçün, Vətən üçün oxuyurdunuz. Sizə elə gəlirdi ki, günlər ləng ötüşür.

O günlərdə birinci Qarabağ müharibəsinin iştirakçıları kimi, tələbə gənclərimiz kimi minlərlə həmyaşıdınız da döyüşlərə can atırdı. Buna ehtiyac olmasa da can atırdı. Vətən sevgisi onları döyüşlər gedən ərazilərə çəkirdi. O həmyaşıdlarınız döyüşmək, torpaqlarımızı işğaldan azad etmək istəyirdi, aidiyyatı qurumlara, Müdafiə Nazirliyinə müraciət edirdi. Bəlkə siz də onların sırasında olubsunuz?!..

Yaşının azlığına təəssüflənənlər də olub. Sən də təəssüflənibsən, şübhəsiz. O neçə gündə zamanı qabaqlamaq, Mübarizləşən əsgərlərin sırasında olmaq istəyi hər birinizi yaşarı bir amalın zərrəsi eləmişdi: Qələbə!...

İndi əsgərsiniz. İndi səngərdəsiniz.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyib ki, "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Bu tarixi sənin ruh qardaşların yazdı. Siz daha möhtəşəmini yazacaqsınız!..

Böyük Qələbə torpaqlarımızın yaralarına bağayarpağı olacaq. Həmin gün gur yağış yağacaq, çiçəklərin ləçəklərindən toz-tomuru təmizləyəcək, illərdi torpaqlarımıza yük olmuş ayaq izlərini siləcək. O günə az qalıb. Qələbənin işığını görürük!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər:

## hadisələr, faktlar

### Əfqanıstanda törədilmiş terror aktı nəticəsində 40-dan çox insan yaralanıb



Əfqanıstanın cənubunda yerləşən Laşkarqax şəhərində törədilmiş terror aktı nəticəsində 40 nəfərdən çox insan yaralanıb.

Terrorçu-kamikadze minalanmış maşını polis binasının önündə partladıb.

Terror aktına görə məsuliyyəti "Taliban" qruplaşması öz üzərinə götürüb.

### Yəməndə otelə hava hücumu nəticəsində 35 nəfər ölüb



Yəmənin paytaxtı Səna şəhərindəki otellərdən birinə edilən hava hücumu nəticəsində 35 nəfər həlak olub, yüzlərlə insan yaralanıb. Bu barədə CNN telekanalı məlumat yayıb.

Qeyd edək ki, 2014-cü ildən ölkədə davam edən vətəndaş müharibəsi təqribən 10 min nəfərin həyatına son qoyub, milyonlarla insan evini tərk etmək məcburiyyətində qalıb.

### Qətər ilə Türkiyə arasında ilk birbaşa dəniz xətti açılıb



Qətər ilə İzmir limanı arasında 5 min tondan çox yük daşımaları həyata keçiriləcək.

Ayda bir dəfə Türkiyədən yola çıxacaq gəmi 11 günə Qətərə çatacaq.

Birbaşa dəniz xətti həm Türkiyə-Qətər iqtisadi əməkdaşlığına, həm də limanlar arasında əlaqələrin gücləndirilməsinə müsbət təsir edəcək.

### İraqda yeddi terrorçu zərərsizləşdirilib



Türkiyə Hava Qüvvələri Komandirliyinə məxsus döyüş təyyarəsi İraqın şimalında yerləşən Hakurk bölgəsində separatçı terror təşkilatı üzvlərinə qarşı hava əməliyyatları keçirib.

Əməliyyat zamanı 7 terrorçu zərərsizləşdirilib. Bundan başqa, "Doçka" adlı bir zenit qurğu və silah-sursat depoları da məhv edilib.

Vəzifələrini uğurla yerinə yetirən qırıcılar təhlükəsiz şəkildə bazalara qayıdıblar.

### Amerikalı köhnə avtomobildən elektromobil düzəldib



Amerikalı mühəndis Bret Belan köhnə -1972-ci ildə buraxılmış furqon avtomobilini elektromobilə çevirib. O, həmçinin maşının iqtisadi səmərəliyini artırmaq məqsədilə onu günəş panelləri ilə təchiz edib.

Mühəndis avtomobilin bütün elektrik hissəsini öz əli ilə yığıb, yuxarısında isə hər biri 355 vatt olan 4 günəş paneli qurašdırıb. Elektromobilin hərəkət sürəti hazırda 50-65 kilometr-saat təşkil edir. Bret Belan isə hesab edir ki, avtomobil bir qədər modernləşdirildikdən sonra 300 kilometrədək məsafəni qət edə biləcək.

İxtiraçının fikrincə, belə avtomobillər dağ və meşə yolları üçün daha məqsədəuyğundur.

**AZƏRTAC-ın materialları əsasında**

# “Gənc Heydərçilər” Xaçmaz şəhərinin görməli yerləri ilə tanış olublar

*Qusar rayonunda yerləşən "Gənc Heydərçilər" yay düşərgəsinin iştirakçıları avqustun 23-də Xaçmaz şəhərinin görməli yerləri ilə tanış olublar.*



AZƏRTAC xəbər verir ki, düşərgə iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər. Heydər Əliyev Mərkəzində layihə iştirakçılarına Ulu Öndərin mənalı ömür yolu, ölkəmizin inkişafı naminə gördüyü əvəzsiz işlər barədə ətraflı məlumat verilib.

Açıq səma altında yaradılan Şəxsiyyətlər Muzeyi ilə yaxından tanış olan layihə iştirakçıları daha sonra Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Onların diqqətinə çatdırılıb ki, 2013-cü ildə bu muzeyin açılış mərasimində dövlətimizin başçısı şəxsən iştirak edib. Muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxsaylı eksponatlar var. Muzeyin ikinci mərtəbəsində tarix-etnoqrafiya bölməsi fəaliyyət göstərir. Burada müxtəlif dövrlərdə xaçmazlıların həyat tərzini və məişətini əks etdirən eksponatlar yerləşdirilib.

Düşərgə iştirakçıları, həmçinin Xaçmaz şəhərindəki parkları gəzib, xatirə fotoşəkilləri çəkdiriblər.

# Ermənistanda sosial gərginlik

Ermənistanda sosial gərginlik davam edir. İşğalçı ölkədə növbəti etiraz dalğası Lori bölgəsində baş qaldırıb.

AZƏRTAC xəbər verir ki, bir müddət əvvəl qızıl mədənlərinə gedən yolu bağlayan vətəndaşlar ölkədə özbaşınalıqlara son qoyulmasını tələb edirlər. Kəndlilər deyirlər ki, hökumət illərdir onların taleyi ilə maraqlanmır. Bu yerlərdə həyat dayanıb, Ardvidə yalnız səfalət, işsizlik, hökm sürür. Sakinlər problemlərinə çarə tapmaq üçün özləri layihə hazırlayaraq hökumətə təqdim ediblər. Onlar bu yerlərin gözəl təbiəti olduğunu əsas gətirərək, dövlət qurumlarından kənddə turizmin inkişafına dəstək istəyiblər.

İndi sakinlər bu addımı atmalarına peşmandırlar. Çünki dağ-mədən şirkətlərinin diqqətini çəkiblər. Kəndin ərazisində yerləşən dağlarda qızıl yataqları var. Ardvidə yaşayanlar deyirlər ki, əgər orada qazıntı işlərinə başlanılarsa, onları bu yerlərdən didərgin salacaqlar. Onsuz da bir vaxtlar yüzlərlə ailənin yaşadığı kənddə indi az adam qalıb. Buna səbəb isə yoxsulluğun gətirdiyi sosial problemlərdir. Belə yaşayışa dözə bilməyən sakinlər eveşiklərini qoyub xaricə üz tutublar. Ölkədən getməyə imkan tapa bilməyənlər isə burada qalıb min bir əziyyət içində yaşamağa məcburdurlar. Onlar kəndlərindəki qızıl mədəninin tapılmasına imkan verməyəcəklərini deyirlər. Ona görə də etirazçılar bir müddət əvvəl ekoloqların, parlament nümayəndələrinin, Ermənistan Ekologiya Nazirliyinin əməkdaşlarının qızıl yatağı olan Ardvi kəndinə daxil olmasına imkan verməyiblər.

*Hərbi ənənələr, yeniliklər*

# QAZ-34039 avtomobili



QAZ-34039 sovet istehsallı, müxtəlif yerlərdə hərəkət edə bilən və çətin tapşırıqları yerinə yetirməyə qadir olan nəqliyyat vasitəsidir. Bu avtomobil bir çox yeni nəsildən olan xizəkli-tırtıllı avtomobillər üçün əsas sayılır. Onun təchiz olunmuş halda çəkisi 4,8 tondur və 1,2 tonadək ağır yük qaldırmağa qadirdir. Maşına 10 nəfərə qədər adam yerləşdirmək olar. Bundan başqa avtomobildə heyət üçün dörd yataq yeri də ayrılıb. Dörd silindrdən ibarət olan tırtıllı avtomobilin mühərriki 109 at gücündədir. Uzunluğu 5,7 metr, eni 2,5 metrdir. QAZ-34039 avtomobilinin quruda sürəti saatda 60 kilometr, suda isə saatda 6 kilometr təşkil edir. Onun seriyalarla istehsalına 1985-ci ildən başlanılıb və əsas üstünlüyü suyun üzərində, buzla örtülmüş ərazilərdə də hərəkət etməsidir. Şarnirləri metaldan hazırlanıb. Sürücünün əsas vəzifəsi şarnirlərin sıradan çıxmasına və lentin dartılmasına nəzarət etməkdir. İstismar zamanı lent dartılaraq qırıla bilər. Kəskin hava şəraitində salonun içərisində istiliyi təmin etmək üçün pəncərələri ikiqat şüşə paketlərlə təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda cinayət hadisələri davam edir

*Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən düşmən ordusunun bölmələrində cinayət hadisələri baş verməkdə davam edir.*

AZƏRTAC Ermənistan sosial şəbəkə istifadəçilərinə və mətbuatına istinadən xəbər verir ki, Madagiz hərbi bazasında şəxsi heyət arasında nizamnamədən kənar qarşılıqlı münasibətlərin pozulması nəticəsində bölük komandiri Qrikoryan vəzifəsindən sui-istifadə edərək təbeçiliyində olan Hamo adlı əsgərə qarşı fiziki güc tətbiq edib. Xəsarət alan əsgərin valideynləri, övladlarına qarşı tez-tez belə hərəkətlərə yol verildiyindən hüquq mühafizə orqanlarına müraciət etmək məcburiyyətində qaldıqlarını bildiriblər.

Ağdərə ətrafında yerləşən digər bölmələrin birində də döyüş mövqeyində post başçısı Tiqran ilə Sasun Spartaki Vağunts adlı hərbi qulluqçu arasında baş vermiş mübahisə nəticəsində hər iki hərbi qulluqçu müxtəlif bədən xəsarəti alıblar.

Baş verən hadisələri ört-basdır etmək mümkün olmadığından komandanlıq cinayət işi açılması üçün hərbi polisə müraciət edib.

# İdman

## “Qarabağ” UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksəlib



"Qarabağ" UEFA Çempionlar Liqasının pley-off mərhələsinin cavab oyunları çərçivəsində Danimarkanın "Parken" stadionunda "Kopenhagen" komandası ilə qarşılaşıb.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən oyun sürətli hücumlarla başlayıb. Matçın 44-cü dəqiqəsində kobud oyuna görə hakim Miçelə sarı vərəqə göstərib. Matçın birinci hissəsinə əlavə edilən vaxtın 1-ci dəqiqəsində Qrequsun yerinə yetirdiyi cərimə zərbəsindən sonra ev sahibləri hesabda irəli çıxıb - 1:0.

Ağdam klubu matçın 63-cü dəqiqəsində Dino Ndlovun dəqiq zərbə ilə oyunda tarazlığı bərpa edib - 1:1. Lakin bu qoldan cəmi üç dəqiqə sonra ev sahibləri yenidən hesabda irəli çıxıblar. Pavloviç başla dəqiq zərbə ilə adını tabloya yazdırıb - 2:1.

Beləliklə, matç 1:2 hesabı ilə "Kopenhagen"in xeyrinə başa çatıb. Bakıda keçirilən oyunda 1:0 hesabı ilə qalib gələn "Qarabağ" səfərdə vurduğu qol sayəsində iki oyunun nəticəsinə görə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanıb. Bununla da "Qarabağ" Azərbaycanın futbol tarixində UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanan ilk klub olub.

## Azərbaycan taekvandoçusu Ümumdünya Yay Universiadasında qızıl medal qazanıb



Taypey şəhərində təşkil olunan tələbələrin XXIX Ümumdünya Yay Universiadasında Azərbaycanın taekvando üzrə milli komandasının üzvü Milad Beigi Hərçəqani qızıl medal qazanıb.

Avqustun 23-də kişilərin mübarizəsində Milad Beigi Hərçəqani (80 kq) portuqaliyalı idmançı Jaan Miçel Fernandezə 29:1, Rusiya Federasiyasını təmsil edən Boqdan Qreçkinə 25:8, yaponiyalı Hidenori Ebatana 32:15 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Yarımfinalda ev sahibi ölkənin idmançısı Vey-Tinq Liu ilə görüşən dünya çempionumuz rəqibini mübarizədən kənarlaşdıraraq finala adlayıb - 12:4.

Həlledici qarşılaşmada bu il dünya çempionatında məğlubiyyətə uğratdığı ispaniyalı Raul Martinez Qarsiya ilə üz-üzə gələn Milad 6-3 hesablı qələbə sayəsində Universiadanın qalibi olub.

## Azərbaycan güləşçisi Elvin Mürsəliyev dünya çempionatının bürünc medalını qazanıb



Parisdə güləş üzrə dünya çempionatının ikinci yarış günündə 59, 66, 80 və 130 kiloqram çəki dərəcəsində yunan-Roma güləşçiləri mübarizə aparıblar.

80 kiloqram çəkidə mübarizə aparan Elvin Mürsəliyev ilk görüşdə Rusiya idmançısı, ikiqat Olimpiya çempionu Roman Vlasovu gərgin keçən qarşılaşmada məğlub edib. Səkkizdəbir finalda Polşa təmsilçisi Edqar Babayanı vaxtından əvvəl tam üstünlüklə mübarizədən kənarlaşdıran güləşçimiz növbəti görüşdə Mərakeş idmançısından üstün olub. Yarımfinalda Belarus təmsilçisi Radzik Kulieu ilə gərgin keçən qarşılaşmada hesab bərabər olsa da sonuncu xalı qazandığından qələbə rəqibə verilib.

Bürünc medal uğrunda görüşdə Bolqarıstan idmançısına qalib gələn güləşçimiz E.Mürsəliyev yarışda üçüncü pillədə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti leytenantı Bədirli Tural Niyaz oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 352
Nüsxə 4600